# *FİLOLOGİYA*

## Ağarəhimin nəsrində şəxsiyyəti dəyərləndirmə

**Sevinc Ağarəhim qızı Rəhimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universitetinin professoru*
**E-mail:** sevinc_rahimova1@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
filol.ü.e.d., prof. İ.B. Kazımov

**Açar sözlər:** şəxsiyyət, nəsr, ideologiya, söz, tarix, insan, yenilik, əxlaq
**Ключевые слова:** личность, проза, идеология, слово, история, человек, новаторство, мораль
**Key words:** personality, prose, ideology, word, history, man, innovation, morality

Dünya öz məzmununu və cildini durmadan dəyişmədədir. Nasir-dramaturq indiyə qədərki çılpaq sterotiplərə, bəsit və bəzən də qondarma prinsiplərə, mühafizəkar mövqedən yanaşmanın təbiiliyini qabartmağa çalışır. Görkəmli filosof və mütəfəkkirlərə görə, yeni dövr, yeni ideologiya vaxtaşırı özünəməxsus meyarlar seçilməsinə can atır. Söhbət mühafizəkarlığa son, yeniliyə can atma təfəkküründən, — populist düşüncələrdən əl çəkib yeni məzmun, yeni insan formalaşdırmağın zəruriliyindən gedir. Heç şübhəsiz, bir söz sənəti kimi ədəbiyyatda yeni dövr ideologiyasına yanaşılmasından və uyğunlaşdırılmasından keçir.

Yeni ideologiya özünə uyğun yeni insanın, yeni təfəkkürün, yeni məzmunun, yeni simanın və yeni elmi meyarların formalaşdırılması prinsiplərinin müəyyənləşdirilməsini irəli sürür. Etiraf edək ki, bu, çətin, mürəkkəb tarixi hadisədir. Yaradılmışların təftişi, köhnəliyin bu və ya digər formada inkarı əvəzində yeni sərt element və ünsürlərin məzmuna gətirilməsi möhtəşəm olduğu qədər də mübahisəli hadisədir.

Köhnəliyə, mühafizəkarlığa qarşı yeniliyin qəbulu insan yaddaşında oturuşan izlərini asanlıqla itirəcək, onu yeniləri ilə əvəzləmək və bu yaradılanlara adaptasiya buxovu vurmaq yeni tarix yaratmaqdır. Bir sözlə, bu yanaşma zamanın axarında yeni hadisə kimi dəyərləndirilir. Axı ədəbiyyat tarix-siyasi-sosioloji-pedaqoji-psixoloji düşüncə deyil ki, fürsəti fövtə vermədən, ağa-qara demədən onun istiqamətini dəyişəsən.

Aksiomadır ki, ədəbiyyat toxunaqlığa, tendensiyalara, kontuktur və siyasi sifarişlərə o qədər də meyillənməyən sənət növlərindəndir. Ədəbi proses yarandıqca və gün-gündən inkişaf etdikcə, dəyişməz, obyektiv-tarixi təzahür prinsiplərinə əməl etməyə, bədii-estetik xüsusiyyətləri özündə cəmləşdirən sənət meyarları funksiyası daşımağa başlayır. Doğrudur, hər cür inkişaf, siyasi-iqtisadi-ədəbi-bədii-psixoloji-ideoloji-fəlsəfi dəyişmələr mahiyyət etibarı ilə «tarixi konsepsiya»ya uyğunlaşdırma üzrə zəruri ehtiyaca möhtac olur. Bütün bunlar insanın əxlaqi-mənəvi-elmi-nəzəri-metodoloji təfəkkürünün, dünyagörüşünün hansı istiqamətə yönəlməsinə və zənginləşməsinə təkan verəcək bir haləyə gətirilməsinə zəmin yaradır.

Yeni insan yetişdirməyin ən səmərəli yolu və vasitəsi şübhə doğurmur ki, ədəbiyyatdır. Tarixi təcrübə göstərir ki, qlobal dünya möhtəşəm, təkzib olunmayan ideya yaratmada və tarixə münasibətdə, intensiv dəyişmənin ilkin hallarında insanın özünü xammala çevirir, dəyərlər və fəaliyyət sistemini yeni quruluşun ideologiyasına uyğun tədricən həmahəng və ahəngdar

görkəmə gətirir.

XX əsrin əvvəllərində (17-22-ci) illərində yeni peyda olan sovet imperiyası bir sıra humanitar-pataloji elmləri sıradan çıxartdı. Əvəzində öz ideologiyasına, siyasətinə uyğun kadrlar hazırlamaq üçün "Pedaqogika" elmini yaratdı. Qurama məzmun, qurama metod, qurama priyom və qurama vasitələr uydurdu. Bütün pedaqoji texnikumlarda və institutlarda gənclərdən öz ideologiyasına məxsus yeni kadr yetişdirməyə başladı.

Yeni mahiyyətli pedaqogikanın məzmununu, prinsiplərini, mülahizə və mühakimələrindən doğan bilik və bacarıqları mənimsətməyə çalışdı. Həqiqi təhsili kənarda qoyaraq siyasi xəttinə müvafiq platformasını irəli sürdü. Bununla da "Vannadakı suyu uşaq qarışıq atdı (Hegel)". Nəticədə nə baş verdi? Məktəb üzünü Şimala, pedaqogika elmi Cənuba tutdu. Onların nə kəsişən xətləri, nə paralellikləri, nə də üst-üstə düşən nöqtələri oldu.

Sovet imperiyasının qəddar rejimi repressiyalarla qurduğu əlahiddə cəmiyyətin oğrularını, dələduzlarını, rüşvətxorlarını, korrupsionerlərini, bürokratlarını, bandalarını... formalaşdırdı. Onun yaratdığı sistemin element və ünsürləri uzun müddətdir ki pozucu izlərini qoymaqdadır. Elmin, mədəniyyətin inkişafına mənfi təsirini göstərmədədir. Bu gün bəşəriyyət ağlasığmaz problem qarşısındadır. Biləsiz ki, dünya təlatümlər okeanındadı. Planetar səksəkədə insan vahimədədi. Göy də nagahan... Kosmik fəza çalxalanır... Hər gün təsir, hər gün təhdid... Ekoloji durum da bir tərəfdən... Qorxunc, sağalmaz xəstəliklər. Yalandı-gerçəkdi, fərqinə varmadan koronovirus iddiaları... Müharibələr… Qırğınlar... Terrorlar… Cəmiyyətin əxlaqi-mənəvi sarsıntıları… Panikalar... Şantajlar... Bahalaşmalar... Çörək qıtlıqları... İtən insani münasibətlərin sonuclanan iniltili intiharı… Görəsən, kimsə ölüm-itimlər, nəsillərin bədbəxtliyi barədə düşünürmü?! Allaha gerçəkdən üz tutan varmı?! Çox çətin!.. Bu gün dünən deyil… Açıq danışaq. Öyrəncəliyik dünənin bərq vuran saraylarını mənafelərimiz naminə dağıdıb əvəzində bu günün xərabəliklərini fəxrlə gözə soxmağa! — Təki arada «mən» və «varidat» olsun — deyə... Aslan aslanı, pələng pələngi parçalamır. Ancaq insan insanı həm mənən, həm də cismən didir, dağıdır… Budur, bugünkü dünyanın əqli və fiziki iş əmsalı. Qəribədir, beləcə allahsızlar Allahı əritməyə cəhdlər göstərirlər. Dünyanı assiomatik mülahizələr, onların törədə biləcəyi kabuslar dolaşdırır. Rokfellər dünyasının törəmələri özləri də arxayın, sərbəst, fəxrlə dil açırlar. Əcəb işdi. Köhnə bazarın "təzə məhsulu" ortaya çıxır: "Ancaq keçmişdən qalan "meyar-şəxsiyyətdir!" olacaq.

Deməli, şəxsiyyət də, "mən" də, "xalq" da, neçə vaxtda çeynənən aşkarlıq da, demokratiya da, azadlıq da, vicdan da… kölgəyə düşür. Böyük Nəsimi demişkən: "Mənəm haq", "haq mənəm" prinsipi ilə oturub-durmalı olurlar.

Rəhmət sənə böyük mütəfəkkir!.. İndi nə haqq var, nə də ədalət. Belə olanda hanı "mən", hanı "şəxsiyyət?". Bəzən baş verənlərə Böyük Qüdrət də təəccüblənir. Bəli, yeni təfəkkür, yeni insan!!! Mən cəsarətlə deyirəm: "İnsan sosial inkişafın, iqtisadi inteqrasiyaların astanasında və ağuşundadı, mənəvi-əxlaqi vakumdadı! Düşünən beyinlər, var-dövlətə hərisli və ehtiraslı insanlar və hökmdarlar özləri də bilmədən iflasa uğrayırlar. Onda "vicdana", "etik düşüncəyə", "əxlaqı-mənəvi-intellektual" keyfiyyətə ehtiyac olmayacaq. İnsani münasibətlər çökəcək. Obyektiv həyat, iqtisadi güclər eyni əllərdən su içəcək. Özbaşına verilən volyuntar göstərişlər, əmrlər, fərmanlar, sərəncamlar... bəşəriyyətə "gəl-gəl" deyəcək. İnsan duyğularını oyadan, əxlaqı, mənəviyyatı qidalandıran bir çox sənət (musiqi, heykəltəraşlıq, rəssamlıq, din…), eləcə də ədəbiyyat infarkt və intihar müstəvisinə qaldırılacaq…"

Bütün bu deyilənlər yazıçı-dramaturq Ağarəhimin heç də pessimist xülyaları deyil. Gələcək nəsillərin acı taleləridir. Gənc və istedadlı filoloq-alim İslam Ağakərimova görə, yeni yaranan naqis əxlaq uzun zaman zəncirinin nəsillərdə oturuşan əxlaqi-mənəvi keyfiyyətlərini

reallaşdıracaq.

Onu da deyək ki, bu gündən gələcəyə boylanan yazıçı nikbindir. Təxəyyülü parlaq, təfəkkürü çevikdir. Cəsarətlə deyə bilərik, oxucu Ağarəhimin yaradıcılığına lap əzəldən inamlıdır. O, ədəbi fəaliyyətinə böyük ümidlə yanaşan analitik-təhlilçidir. Əsərlərini araşdıraraq ümumən belə qənaətə gəlir ki, böyük pedaqoq-psixoloq-filosof ədib heç vaxt əsassız, məntiqsiz, uydurma fikir söyləmir. Onda elmlə sənət, ədəbiyyatla sənətkarlıq fitri istedadının idxal etdiyi eyni mənbədən qidalanır. O, digər humanitar elmlərə (siyasətə, sosiologiyaya, psixologiyaya, fəlsəfəyə…) dərindən bələddir. Elmdə, həqiqətdə, ədalətdə kimsəyə güzəştə getmir. Özünə və ünsiyyətdə olduğu adamlara hədsiz tələbkardır. Sanki qəlbində tufan, beynində fırtına tüğyan eləyir. Ədib o tüğyanın ağuşunda aramsız çabalamadadır. İstər elmi, istərsə də bədii əsərləri elmi-bədii-publisistik üslubda qovuşur.

Ədibin baza təhsili dildir. O bununla da fəxr edir. Onun elmlə paralel ədəbi-bədii düşüncələrinin, çoxşaxəli və tükənməz yaradıcılığının hər biri ədəbiyyat tənqidçilərinin, mütəxəssislərinin, oxucularının maraq və diqqətindədir — desək, bəlkə də yanılmarıq. Mükəmməl kinossenariləri, canlı və məzmunlu pyesləri onun kinoteatr mütəxəssisi kimi formalaşdığının başlıca göstəriciləridir.

Yazıçının yaradıcılığı sırf həyati olduğundan, həm də fəlsəfidir. O, ideoloji insandır. Demək olar ki, bütün ömrünü axtarışlarda keçirir. İdeyaca sağlamdır! Onun düşməni saxtakarlıq, yalan, tamahkarlıq, təkəbbür və müştəbehlikdir. Cəsarət göstərərək mübaliğəsiz deyirəm: Ədib hamıya aydın və açıqdır. Gizlinləri hələm-hələm demək olar ki, yoxdur.

O, həssas, pedaqoq-psixoloq alimdir. İnsan qəlbinin dərin bilicisidir. Sözün həqiqi mənasında onu aynayla müqayisə etmək olar. Ayna həm özünün, həm də təmasa qoşulduqlarının kimliyini və necəliyini, hiss və duyğularını, başqa sözlə, silqətlərinin ifadə təcəssümünü bütünlüklə sezmək imkanı yaradır.

Yazıçı bütün fəaliyyətində maddi qabıqdan, səs komplekslərindən sözə, sözlərdən cümləyə və oradan da təsvir edəcəyi hadisənin mətninə (mahiyyətinə) gedir. Bu əməliyyat bir anlığa insana nələri xatırladır? Sanki açıq səmadakı işartıdan xəyalən geniş qalaktikaya, ruhən göy cisimlərinin bakirə qübbəsinin, planetlərin təbii qanun və qanunauyğunluqlarının, möcüzə və heyrət doğuran hərəkətlərinin, ağlagəlməz yerdəyişmələrinin, böyüklü-kiçikli sayrışan ulduzların yer adlı planetlə fasiləsiz, qırılmaz və möhtəşəm cəzbi və cazibəli əlaqələrinin… seyrinə dalmağa çalışdığını!!! Təsəvvür edin! Nəhayətsiz kainat!.. Dünyanın dərkolunmazlığı!.. Hər anı möhtəşəm abstraksiya!.. Düşüncələr sahilsiz bir ümman!.. Öyrənməyə daim can atan bəşər övladı!.. Yaxın-uzaq aləmlərin kəşfinə yönəli cahanşümul cəhdlər!.. Kimə nə qismətdi, onu tapır. Həssas duyumu, iti müşahidəsi, analitik təfəkkürü, məntiqi gedişləri ilə sirli qapıları açmağa qabil insan ruhu!.. Bunlar daim əsas verir ki, insan özü üçün abstrakt və möcüzəli aləm haqqında fasiləsiz düşünsün, müstəqil mühakimələr yürütsün, sərbəst mülahizələr söyləsin!.. Yazıçı olan hər kəs mənəvi təmasa öyrəncəlidir. Düyünlü kələfləri və mübhəm icadları açmağa, "mənalar içində mənalar axtarmağa" həvəslidir.

Çözələmə, arama, öyrənmə, hadisədən hadisəyə adlama… duyğularını ifadə eləmə bacarıqları — demək olar ki, Ağarəhim yaradıcılığının başlıca keyfiyyətləridir. Bu, istedadlı yazıçının yaradıcılığına təbii əlvanlıq və orijinallıq gətirir. Açıq etiraf edək ki, yazıçı yaratdığı müsbət və mənfi obrazlarını fərq qoymadan çox sevir. Onların xarakterlərindəki alt qatlarını, gizli cizgilərini açmağa və necə var, elə də oxucularına çatdırmağa çalışır. Bu keyfiyyət göstərir ki, ədib bütün obrazlarına insani münasibətdən yanaşır. Mənfilərin qəbahətlərini açır, onları doğru səmtə istiqamətləndirir, fəzilətlərinin inkişafına təkan verir.

Ağarəhim şəxsi həyat fəaliyyətində və bütöv yaradıcılığında (nəsrində və dramaturgiya-

sında) şəxsiyyət bütövlüyü formalaşdırma problemini önləməyə çalışır. Məqsədi təkcə istedadından, ilhamından süzülən bədii düşüncələrini (ruhani keyfiyyətlərini, yaxud, kor-koranə baxışlarını, yonulmamış, rəndələnməmiş hərəkətlərini…), əxz elədiyi həyati ideyalarını düzgün ifadələndirmək deyil, həm də insanda insanilik yaratmaqdır. Heç də təsadüfi deyil ki, Ağarəhim yaradıcılığında özünüarama, axtarma, özünütəkmilləşdirmə və özünüdərk problemlərini də önə çəkir. Bu, onun nəsrində və eləcə də dramaturgiyasında aydın sezilir:

Ağarəhim yüksək pedaqoq-psixoloq-filosofdur; həqiqətən bütöv şəxsiyyətdir; mübaliğəsiz istedadlı yazıçıdır; duyğusal və mükəmməl dramaturqdur. Çoxlarına nümunə olacaq xeyirxah və mərhəmətli insandır. Situasiyadan asılı olaraq, onun xarakteri ciddidir-mülayimdir; güzəştsizdir-güzəştlidir; sevgilidir-nifrətlidir və s. və i.a.

O, nə idealistdir, nə də ateist. Nə pula, nə də varidata hərisdir. Nə əxlaqını cəh-cəlala satan kobud iqtidar, nə də "ruhu mənafe ardınca qaçan", yalançı, fırıldaqçı müxalifətdir. Onun yeganə amalı ədəbiyyat səviyyəsinə qalxmaqdır. Yaşadığı cəmiyyətin gözlərinin içinə dik baxmağı bacaran ədibdir. Milli mədəniyyətin daim keşiyində dayanan bədiiyatçıdır. Hadisələrə marağı qəti, sistemli və davamlıdır.

Bir gün müstəntiq ona telefon açır: "— Bəlkə işin sonunda görüşək. Bir stəkan kofemizə də qonaq olarsız… Yaxşı olar ki, gələndə mühasibinizi də gətirəsiz.

Ayıq, sözdən söz, fikirdən fikir çıxaran sənətkar dərhal müstəntiqi anlayır və astadan bildirir:

— Mühasib niyə? Özü də işin sonunda. Axı o qadındı.

— Nə olar, professor, o da bizim anamız-bacımız".

Professor mühasibinə artıq söz demir. İşin sonunda müstəntiqlə görüşürlər. Məlum olur ki, bu görüş bəhanədi. Müstəntiqin gedişləri "Söz oğurluğu" və anonim məktubla bağlı professoru sorğuya çəkməkdən ibarətdir. Müstəntiq professoru görcək süni qürurlanır, özündən müştəbeh halda suallar verir. Professor altdan-altdan onu süzür. Gözlənilmədən soruşur:

— Bu xanımı bura niyə dəvət eləmisən?

— Fikirləşdim, söhbətimizin qol-qanadı onu da tuta bilər. Məsələyə birlikdə aydınlıq gətirək.

Professor daxilən əsəbiləşir:

— İşin sonudu, müstəntiq, hava qaralır. Mühasib bekar adam deyil, ailə-uşaq sahibidir. Buraxaq onu, getsin. Nə dərdi-sərin var, mənimlə çənə vuraq.

Sonra professor üzünü xanıma çevirir:

— Xanım, dur, maşın səni aparsın evinə.

Sonra müstəntiqə deyir:

— Sən düz danışana oxşamırsan.

Müstəntiq tutulur. Səsi gərilir. Professor ayağa qalxıb, müstəntiqin çiyinləri üstən pəncərədən çölə baxır:

— Müstəntiq, bu həyətdə park edən maşınlar yəqin sizin prokurorluq işçilərinizindi?

— Bəli!

— O maşınların hər birinin qiyməti yüz əlli-iki yüz min dollar olarmı?..

— Onlara dəyəri mən vermirəm, professor.

Professor saymazyana:

— Onları nəylə əldə eləyirsiz?

Müstəntiqin əvvəl gözləri qıyılır, sonra iti baxışlarla yazıçı-dramaturqun gözlərinin içinə qəzəblə baxır. Professor əlavə eləyir:

— Qanunlar mürgü döyür, kimsə kimsənin kitabın oxumur. Get, nə yazırsan, yaz. Yazdıq-

larına mən imza atmayacam. Mən də sizin iş üslubunuzu araşdıracam…

Professor başını yelləyə-yelləyə kabinetdən çıxır.

Müstəntiq onun gedişini arxadan izləyir.

Aradan bir müddət keçir. Tədbirlərin birində müstəntiqlə professor qarşılaşırlar. Müstəntiq gülümsünərək professora narazılığını bildirir:

— Siz məni təhqir elədiz, mən sizə cavab vermədim.

Professor özünü o yerə qoymur:

— Axı, mən sizi tanımıram.

Müstəntiq:

— Necə yəni tanımırsız? Mənim kabinetimdə olmusuz.

Professor ciddi görkəm alır:

— Mən səni üzdən, rütbəndən tanıyıram. İçindən yox!.. Qaldı ağlına?..

Yaradıcılığının əxlaqi-mənəvi keyfiyyət məziyyətləri, hadisələrə cəsarətli və fəlsəfi baxışları, bütövlükdə davranış və hərəkətləri belə qənaətə gəlməyə imkan verir ki, deyək, böyük ədib daim insan axtarışlarındadı.

Bir gün istedadlı ədəbiyyat mütəxəssisi İslam Ağakərimov ədibə deyir:

— Siz əsərlərinizdə əxlaq-mənəviyyat problemlərini qabardırsınız. Bu nəylə bağlıdır?

— İnsan mənəviyyatı möhtəşəm tədqiqat obyektidir, nadir incilər tablosudur. Onun oluğu kimi başqalarına ləyaqətlə ötürülməsi sərvət sahibinin həyatını daha da rövnəqləndirir. Onu ülvi məqsədlərin, pak əməllərin xeyriyyəsinə çevirir. İnsanların fizioloji quruluşunda nə qədər uyarlıq, bənzərlik olsa da, bioloji varlıqlarında nə qədər eyniyyət tapmaq mümkündürsə, mənəviyyatları da bir o qədər fərqlidir, uyuşmazdır. Eyniyyətdən uzaqdır… Hərdən fikirləşirəm: İlahi, nə qədər mürəkkəb, nə qədər ölçüyəgəlməzdir insan mənəviyyatı?! Milyon-milyon bənzərsiz istəklər, arzular, amallar, psixoloji çarpışmalar… Təsəvvür eləyirsiz? Xoşbəxt o adamdır ki, qəbahətləri könül mülkündən qovmağı bacarır. Qəbahətlər adasını fəzilətlər mülkünə çevirə bilir. İnsan ali məxluqdu. Filosoflar demişkən, yerin də, göyün də əşrəfidi. Onun nazik, zərif, həssas dərisi də, ayaqdan başa bütün bədəninə yayılan nazik, ölçüyəgəlməz qan damarları da, vissi-vücudunu lərzəyə gətirən sinirləri də… əxlaqi-mənəvi möhkəmliyinin təminatçılarıdır.

Dünyaya çeşidli, al-əlvan naxışlar salan da, yaradıcı ruhun törədicisi də yalnız və yalnız zəngin mənəviyyatdır. O, adama əta yolu ilə verilmir. Bazardan alınmır. Göydən enmir. Yerdən çıxmır. O təcrübədə qazanılır, idrakdan doğur. Başqa sözlə, insan əxlaqı, mənəviyyatı ilə insandır. Əks halda, o, şair demişkən, “şəkli insanda da heyvandır”. Belə olmağı heç kəsə arzulamazdım. Dünyanın bütün gözəllikləri əxlaq və mənəviyyat üzərində təşəkkül tapır. Ona görə də mənim əsərlərimin mahiyyətini əxlaq və mənəviyyat problemləri təşkil edir. Ola bilsin ki, bu, mənim apardığım eksperimental pedaqoji-psixoloji tədqiqatlarımla bağlıdır.

— Özünüzü azad hesab edirsinizmi?

— Azadlıq nisbidi, mütləq deyil. İnsan o zaman azad olur ki, mürgü döyən vicdanı oyansın, düşüncələrində, əməllərində daim Yaradanını başının üzərində görə bilsin. Əxlaqi igidliyi ilə fəaliyyətini tənzimləsin. Heç kəsdən gözləri qıpıq, dili gödək olmasın. Təmənnasız yaşamağı bacarsın. Belə olanda adam heç nədən, heç kimdən qorxmur, çəkinmir. Kimsəyə mədhiyyə oxumur. Daxili azadlığını qazanır. Alnıaçıqlıq, üzüağlıq əldə eləyir. Bax, budur azadlıq! Daxili sərbəstlikdi, müstəqillikdi, əzmkarlıqdı ləzzəti! Xoşbəxtlikdi, səadətdi nəticəsi! Mən başqa azadlıq tanımıram! Kim desə var, o, uydurmadı, yalandı, cəfəngdi! Məni tanıyanlar, xarakterimə bələd olanlar azadlığım, əxlaqım, mənəviyyatım barədə daha ətraflı, daha tutarlı, daha obyektiv fikirlər söyləyə bilərlər. Onda siz bilərsiz ki, həqiqətən də mən azadam, ya yox!

— “Dəlinin yaddaş xəritəsi” romanınız milli ənənələrə əsaslanır. Oxucular onu rəğbətlə qarşılayırlar. Bu hansı mənəvi ehtiyacdan doğdu?

— O, həyatın diqtəsidir. Əsərin qəhrəmanı Zeynəb qarı sıradan dünyagörmüş, milli ruhla, milli adət-ənənələrlə yaşayan dul qarıdır. O, xalqın tarixindən, əxlaqi-mənəvi dəyərlərindən xəbərdardır. Onun əri və oğlu İkinci Dünya Savaşından qayıtmayıblar. Ancaq bu qadın ömrünün son anlarınacan ərinə, oğluna sadiqliyini qoruyaraq saxlaya bilib.

O, sözün həqiqi mənasında hikmət xəzinəsidir. Zeynəb qarı daşıyıcısı olduğu böyük mədəniyyətin və zəngin mənəviyyatın deqradasiyaya uğramasına dözə bilmir. Tək başına çox ağır bir zaman kəsiyində mübarizəyə atılır. Onun yeganə silahı qılıncdan iti sözüdür. Əqidəsincə, istər kişi olsun, istər qadın, fərq eləməz, ona sözlə tam təsir eləmək mümkünsüzdür. Ona görə də qarı bütün şəxsi təcrübəsini, bilik və bacarıqlarını insanın təkmilləşdirilməsi kimi məşəqqətli bir işə sərf edir. Əslində ömrünün qürub çağlarını yaşayan bu qadının əlindən başqa iş gəlmir. Ona görə də Zeynəb qarı fiziki gücünü əqlinin qüdrəti ilə birləşdirir, qarşısına qoyduğu məqsədə doğru irəliləyir.

Tarixdə belə nümunələr də az deyil. Bəhlul Danəndə, Molla Nəsrəddin, Abdal Qasım və başqalarını xatırlayın. Onların silahı yalnız yaşadıqları cəmiyyətə qarşı acı gülüşdürsə, bu qadının silahı gülüşlə yanaşı, atalar sözləri və zərb-məsəllər, deyimlər və duyumları, ibrətamiz düşüncələri, qınaqları və iti məzəmmətləridir… Bu bacarığına görə hamı Zeynəb qarını sevir, ona hörmət eləyir… Heç kəs onun sözündən incimir. Əksinə, qarının adı çəkiləndə vəzifəli-vəzifəsiz, uşaq-böyük fərq eləməz, hamı onun sözündən çəkinir, özünü yığışdırır… Çünki Zeynəb qarının əxlaqi-mənəvi keyfiyyətləri yüksəkdir. O, el-obasına da, yaxın-uzaqlarına da həmin məziyyətləri aşılamağa çalışır. Qarı deyərdi: “Yalamaqla qarın doymaz, gərək onu axıracan...” Bu əxlaqına, mənəviyyatına görə də Zeynəb qarı obrazını yaratmaq yuxarıda dediyim kimi həyatın diqtəsindən və mənim mənəvi ehtiyacımdan doğdu.

— Siz bədii yaradıcılığınızda “özünü təkmillşədirmə”, “özünü dərk” problemini qoyursuz. Bizcə, bu ədəbiyyatın yox, fəlsəfənin problemidir. Buna siz necə baxırsız?

— Əvvəla, o anlayışları mən yaratmamışam. İstər ədəbiyyat olsun, istər fəlsəfə, hər ikisi insan mənəviyyatının araşdırıcısıdır. Onu da unutmayaq ki, ədəbiyyat da fəlsəfəyə ideya verir. Sonrası da görkəmli ədiblər, filosoflar, müxtəlif humanitar elm sahələrinin mütəxəssisləri o məsələlərə müraciət ediblər. Zəki əqidəlilərə görə, “Əxlaqi təkmilləşmə ən böyük əxlaqi igidlikdir”. Məncə, özünü təkmilləşdirmə özünüdərkin ilkin mərhələsi və bəlkə də qapısıdır. Onlar arasında ardıcıllıq nisbiliyi vardır. Onlar daim axtarış tələb eləyirlər. Qədim Babilistanda Delfi məbədinin qapıları üstündə belə bir kəlam yazılmışdır: “Özünü dərk et, onda bütün Allahları da, kainatı da dərk etmiş olarsan”. Bu kəlamdan «bütün» sözünü çıxarıb “Allahından” “lar” cəm şəkilçisini atsaq, məsələnin dərk olunmazlığı aydın olar… Bəşər övladı daim axtarmadadır. Aqil insanın davranışları, həyata real baxışları, sözün geniş mənasında özünü təkmilləşdirmə və özünü axtarmadadı. İnsan doğulandan qəbir evinədək özünü təkmilləşdirməyə ehtiyaclıdır. Özünü təkmilləşdirməsiz özünüdərk yoxdur…

Ağarəhim hadisələrə, yaratdığı obrazlara, onların xarakterinə necə gəldi yanaşmır. O, faktlara, ideoloji-sosioloji-siyasi yöndən lupa qoymağı bacarır. Yusif (Canavar balası), Yaqub (Ulu kəndim), Mürsəl (Meteor parçası) obrazları Ağarəhimin prototipləridir — desək, yanılmarıq. Böyük ədib Ürfan fəlsəfəsinin də ən yaxın bilicilərindəndir. Allaha inamı və imanı insani baxışlarının gərənək platformasıdır. “Allahla ünsiyyət”, “Ölüm və ölməzlik”, “Zəka simfoniyası” və “Qüdrətdən doğan nur” esseləri onun İslama dərin insani münasibətlərinin meyarıdır. O, sələflərinə və xələflərinə münasibətdə çox səmimidir. Əsərlərində dönə-dönə vurğulanır ki, insanın ən böyük varidatı içinin zənginliyidir.

Bu müsahibələri məqaləyə daxil etməklə istədik ki, yazıçı-dramaturqun suallara verdiyi rəsmi-ritorik və obrazlı cavablarının ifadə anlamının təsir gücünün dünyaya filosofanə baxışlarının, insani keyfiyyətlərinin, elmi-ədəbi-bədii yaradıcılığının istiqamətlərini, tutumunun və uğurlarının hamısını olmasa da, bəzilərini oxuculara sezdirək.

Ədibin səmimiyyəti, xeyirxahlıq və mərhəməti həqiqət və ədalətindədir. İnsanlara təmənnasız münasibətindədir.

**Məqalənin aktuallığı.** Şəxsiyyətin düzgün dəyərləndirilməsi, ona obyektiv qiymət verilməsi, onun öz dəyərini başa düşməsi həmin şəxsin məsuliyyət hissini artırır. Bu mənada məqalə aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə yazıçı-dramaturq Ağarəhimin nəsrində şəxsiyyəti dəyərləndirmə diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də gənc tədqiqatçılar yararlana bilərlər.

## Ədəbiyyat

1. Ağarəhim. Əsərlər. (20 cilddə). Bakı: BQU, 2013-2015.
2. Sözün estetik yaddaşı. Bakı: Elm, 1994.
3. Bədəlzadə A. Zamanın üzü, yazıçının sözü. Bakı: BQU, 2006.
4. Bədəlzadə A. Qələmin ucu, qılıncın gücü. Bakı: BQU, 2008.
5. Əlişanoğlu T. Nəsrdə Qarabağ müharibəsinin aspektləri. Bakı, 2013.
6. Məmmədli İ., Məmmədova S. İnsan konsepsiyası işığında. Bakı, 2017.
7. Əsgərli Ə. Sənət və şəxsiyyət. Bakı, 2007.
8. Əsgərli Ə. Sözün divanı və vətəndaş yanğısı. Bakı, 2007.
9. Kazımov İ., Xəlilov X. Yazıçı karyerası. Dilin və sənətin işığında, Bakı, 2013.
10. Rzasoy S. Milli nəsr təfəkkürü və onun hüdudları. Bakı, 2014.
11. Rəhimova S., Telmanqızı A. Yazıçı xarakteri və bədii düşüncə. Bakı, 2018.
12. Rəhimova S. Fikir və ideya fərdiyyəti. Bakı, 2018.
13. Rəhimova S. Ağarəhim poetikasının təmayülləri və təzahürləri. Bakı, 2019.
14. Rəhimova S. Ağarəhim dramaturgiyasının hədəfləri. Bakı, 2020.
15. Rəhimova S. Ağarəhim yaradıcılığında realizm. Bakı, 2021.
16. Rəhimova S. Sənətin söz zirvəsi. Bakı, 2021.
17. Rəhimova S. Ömrün izləri. Bakı, 2021.

**С.А. Рагимова**

## Оценка личности в прозе Агарагима

## Резюме

Агарахим – профессор, известный педагог и методист. Он также известен как знаменитый писатель, драматург и сценарист. О его романах, пьесах и сценариях, рассказах написано множество статей. Публикуемая статья посвящена проблеме оценки личности в прозе Агарахим.

**S.A. Rahimova**

## Assessment of personality in prose Agarahim


## Summary

Agarahim is a professor, well-known teacher and methodologist. He is also known as a renowned writer, playwright and screenwriter. Many articles have been written about his novels, plays and scripts, stories. This article is devoted to the problem of assessing personality in Agarakhim's prose.


**Redaksiyaya daxil olub:** 23.11.2021